**UOT 792**
**https://doi.org/10.59849/2311-8482.2024.3.172**

**HƏBİBƏ ALLAHVERDİYEVA***

# RƏNGKARLIĞIN TƏDRİSİNDƏ MƏNZƏRƏ JANRI VƏTƏNPƏRVƏRLIK, ESTETİK VƏ EKOLOJİ TƏRBİYƏ ASPEKTİNDƏ

*Məqalədə ali və orta ümumtəhsil məktəblərində, eləcə də məktəbdənkənar təhsil müəssisələrində təsviri incəsənətin, rəngkarlığın tədrisinin vətənpərvərlik tərbiyəsinə, ekoloji və estetik tərbiyəyə təsirindən, düzgün istiqaməti məsələlərindən bəhs olunur. Bu mövzu mənzərə janrı, eləcə də naturadan rəsm aspektində araşdırılmışdır. Rəngkarlığın tədrisində bu istiqamət əsas götürüldüyü, bu kimi tərbiyə məsələlərində mənzərə əsərlərinin, təbiət motivlərinin naturadan təsvirinin daha məqsədəuyğun olduğu vurğulanmışdır. Açıqlanmışdır ki, təsviri incəsənət, rəngkarlıq dərslərinin müəyyən mövzularının təbiət qoynunda tədrisi ilə təhsilalanlar bu fənnin texniki cəhətlərini mənimsəməklə, yaradıcılıq imkanlarını artırmaqla bərabər, onların estetik tərbiyə, eləcə də vətənpərvərlik, ekoloji tərbiyəsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Məqalədə eyni zamanda mənzərə əsərlərinin yaradılması metodikası, onun rəng həllinin istiqamətləri, texniki vasitələri, əsasən istifadə olunan "yaşıl rəng" estetikası, psixoloji təsirləri, tərbiyəvi əhəmiyyəti və s. məsələlərə də toxunulmuşdur.*

***Açar sözlər:*** rəngkarlıq, mənzərə janrı, rəssam, yaşıl rəng, təbiət təsvirləri, ekoloji tərbiyə, vətənpərvərlik tərbiyəsi, estetik tərbiyə

## Giriş

Təbiətin rəngarəngliyi, gözəlliyi, meşələrin, çayların, dağların gözəlliyi, heyvanat aləmi, ümumiyyətlə flora və faunası hər bir insanda gözəl duyğular yaradır, təbiət mənzərələrindən estetik həzz alır, insanda gözəllik duyumu, onu hiss etmək, qiymətləndirmək kimi nəcib, ülvi hisslər baş qaldırır. Bundan əlavə başqa insanlardan fərqli olaraq, incəsənət adamları, o cümlədən rəssamlar bu gözəlliyi dəyərləndirərək, öz duyğularını, hiss etdiyi gözəlliyi, təbiətdən aldığı saf enerjini öz tablolarında əks etdirərək bu gözəlliyi tamaşaçılarla bölüşmüş olur. Təbiətin gözəllyinə biganə olmaq qeyri-mümkündür. Təbiəti insan həyatı ilə bağlı edən bədii obrazlar, bənzətmələr, ifadələr çoxdur. Buna görə də mənzərə əsərlərindəki təbiət təsvirləri insan həyatını da dərk etməyə imkan yaradır.

Təsviri incəsənətin böyük bir sahəsini mənzərə janrı tutur. Mənzərə janrında təbiət təsvirləri müstəqil təsvir mənbəyinə çevirilir. Mənzərə əsəri insan tərəfindən dərk olunan, qavranılan, onun hisslərini oxşayan, qəlbində lirik və şairanə, nikbin, yaxud məhzun hisslər oyadan vasitələrdəndir. Rəssam təbiətin gözəlliklərini, havanı, işığı, rəngləri təfsilatı ilə verərkən şəxsi hiss və həyəcana əsaslanır. Təbiətin gözəlliyi insanın bədii hissiyatını tərbiyyə edən, bu hissiyatı saflaşdırıb kamilləşdirən və inkişaf etdirən başlıca mənbələrdəndir.

## Əsas təhlil

Azərbaycanın ərazisində məskən salmış insanların hələ uzaq keçmişlərdə coşqun həyat və yaradıcılıq prosesi keçmişdir. Bunu qədim qayaüstü təsvirlər, qədim mədəniyyət nümunələri sübut edir. İnsan təbiətin bir parçasıdır. "İnsanın təbiətlə olan münasibəti mürəkkəb xarakter daşıyır. Onun özünü təbiətdən ayıra bilməsi kimi tarixi proses nəinki, sadəcə olaraq bəşər mədəniyyətinin meydana gəlməsinə, eləcə də insanların təbiətə mənəvi-estetik münasibətləri və görüşlərinin də yaranmasına səbəb olmuşdur" [5, s.189].

Azərbaycan, eləcə də onun gözəl və ayrılmaz güşəsi olan Naxçıvan qədimliyi, memarlıq üslubu, gözəlliyi ilə seçilən qədim abidələr diyarıdır. Hər zaman rəssamlar bu torpağın gözəlliyini, qədim tarixini təsvir etmişlər. *Eyni zamanda Naxçıvanın diqqət çəkən tarixi-memarlıq abidələri, müxtəlif mənzərələri, mədəniyyət nümunələri, etnoqrafiyasının bədii təsvirləri də yerli rəssamlarla yanaşı dünya rəssamlarının əsərlərində yer almışdır. Belə əsərlərin demək olar ki, çox hissəsi realist təsvir üslubunda, mənzərə janrında yaradılmışdır.*

İstər dünya, istərsədə Azərbaycan rəssamlarının yaradıcılığında təbiət lövhələri böyük yer tutur. İnsanın bədii hissiyatını tərbiyyə edən, bu hissiyatı saflaşdırıb kamilləşdirən və inkişaf etdirən başlıca mənbə olan təbiət gözəlliyini rəssamlar təsviri incəsənətin geniş bir janrı olan mənzərə janrı vasitəsilə əks etdirir. Hər bir rəssam emalatxanasında hər hansı bir mövzu üzərində, çoxlu sayda

etdiyi eskizlərinin bitkin bir formasını hansısa materialda, kətanda, kartan, kağızda və s. yaradır. Yaxud emalatxanada hansısa bir rəssam canlı naturadan da işləyə bilər. Lakin rəssam emalatxanadan kənarda da yaradıcılıq fəaliyyəti göstərir. Rəssamlar yaratdıqları təbiət təsvirlərinin demək olar ki, təbiət qoynunda naturadan yaradırlar. Naturadan yaradılan təsvirlərin bədii, estetik, tərbiyyəvi, psixoloji əhəmiyyəti daha böyük olmuşdur. Rəssam naturadan yaratdığı əsərdə təbiətdən aldığı saf enerjini, duyduğu rəng çalarlarını tabloda əks etdirir. Təbiəti olduğu kimi, ordakı zəngin çalarları verməyə çalışır, sanki təbiətlə yarışır. "Realist istiqamətdə gözəl müşahidəçi, natüralist rəssam öz düşüncəsilə estetik yöndə yaratdığı əsərlərə duya bildiyi rənglərin müxtəlif tonları ilə yeni nəfəs verir. Müşahidə olunan milli rəng çalarları duyğu və qavrayışdan, təfəkkürdən, xəyal gücündən qaynaqlanaraq yaradılan əsərlərdə də milli xüsusiyyətlər öncüllük qazanır" [1, s.6].

Naturadan təsvirlərin əhəmiyyətini nəzərə alaraq gənc rəssamlara təsviri incəsənət dərslərində müxtəlif məşğələlərdə naturadan rəsm, açıq səma altı etüd və plener təcrüübələri və s. vasitəsilə keçirilir. Naturadan rəsm məşğələlərində bu mövzunu tədris edərkən (meyvə, tərəvəzlərin çiçəklərin və s. təbiət motivlərinin naturadan rəsmi) istər ali məktəb tələbələrini, istərsə də orta ümumtəhsil məktəblərin şagirdlərini təbiətə ekuskursiyası şəraitində keçirilməsi, naturadan çəkilən əsərlərin təbiət qoynunda yaradılması daha maraqlı və daha məqsədəuyğun olar. Bu istər orta ümumtəhsil məktəblərinə, istərsə də ali təhsil ocaqlarına aid etmək olar.

Orta məktəb şagirdləri ilə belə dərsləri "Naturadan rəsm" dərslərində mənzərə əsərlərinin çəkilməsi, yaxud "Mövzu üzrə rəsm" dərslərində də təşkili uyğunluqla yanaşı böyük əhəmiyyət daşıyar. Çünki insan tərəfindən dərk olunan, qavranılan, onun hisslərini oxşayan, qəlbində lirik və şairanə, nikbin, yaxud məhzun hisslər oyadan təbiətdir. Rəssam təbiətin gözəlliklərini, havanı, işığı, rəngləri təfsilatı ilə verərkən şəxsi hiss və həyəcana əsaslanır. Təbiətin əsrarəngiz gözəlliyi insanın bədii hissiyatına təsiri ilə onu tərbiyə edən, bu hissiyatı saflaşdırıb kamilləşdirən, inkişaf etdirən başlıca mənbələrdəndir. Məhz təbiətdən alınan təsiri nəzərə alaraq tələbələrin, şagirdlərin əl qabiliyyətinin inkişafından əlavə onların estetik, vətənpərvərlik, ekoloji tərbiyyəsində açıq hava dərslərinin təşkil olunması mühüm əhəmiyyət daşıyır. İstər balaca yaşlı uşaqların, istərsə də tələbələrin ekoloji tərbiyyəsində, estetik tərbiyyə məsələlərində bədii yaradıcılıq, əmək və s. yanaşı təbiətin də mühim rolu var. Məşhur ukraynalı pedaqoq V.A.Suxomlinski şagirdlərinin təbiətdə gəzintisini "mavi səma altı məktəb" adlandırmış, təbiətdə baş verən dəyişikliyi müşhidə etmək, öyrənməyin əhəmiyyətini qeyd etmişdir. O, bildirmişdir ki, günün müxtəlif zamanlarında, havadan əsasən də yaz günəşinin parıltısından aslı olaraq, meşənin yaşıl rənginin müxtəlif çalarını hiss edirik. Yaz fəslində yaşıllığın iyirmidən çox çalarını dəqiq müəyyən edə bilmişik.




Şəkil.1

Açıq səma altında keçirilən etüdlərin təşkilindən öncə tələbələrə etüd haqqında, materiallar haqqında məlumat vermək lazımdır. Auditoriyada rəsm dəzgahı molbert idisə, təbiət qoynunda istifadə edilən dəzgah etüdnik olacaq. Etüdniklər rəssamın hər hansı bir yerdə etüd etməsilə yanaşı, həm də bütün rəssamlıq ləvazimatlarının, materiallarının daşınması üçün əlverişlidir. Rəssam etüd

edəcəyi boyaları, fırçaları, hətta, kiçik ölçüdə olan kağız, karton və ya kətanı da etüdnikin içərisində daşıya bilər. Etüd həm kağız üzərində sulu boya ilə, həm də kətan və ya karton üzərində yağlı boya ilə çəkilə bilər. Açıq havada tələbələrlə birlikdə təşkil olunmuş etüdlər zamanı müəllim ilk öncə hər hansı bir təbiət lövhəsinin, yəni yerin seçilməsini izah etməlidir. Hər hansısa bir yerin seçimində obyektin maraqlı görünməsinə, işıq-kölgə vəziyyətinə diqqət yetirilməlidir. Yerin təyin etmək üçün bir kağız vərəqdən də istifadə etmək olar. Etüd edilən materialı eninin uzununa nisbətinə uyğun ölçüdə, kağızın mərkəzindən dördkünc kəsilir və bu kəsilən kağızı gözə yaxınlaşdırıb həmin boşluqdan baxaraq, çəkiləcək obyekt müəyyən edilir. Hər bir tələbə həmin kağız vasitəsilə çəkəcəyi yeri asanlıqla tapır. Bu dörd künc boşluq hansı obyektləri işləyəcəyimizə qərar verməyimizə kömək etmiş olur. Bu üsul rəssamın fəal baxışı ilə mənzərə və onun hissələri arasındakı əlaqəni müəyyən edir. Mənzərə rəsmini çəkməyə başlamamışdan öncə tələbə mənzərə elementlərini, hissələrin qurulması qaydalarını bilməlidir. Realist üslubda mənzərəni qurma qaydalarına uyğun olaraq müəyyən xəttlərin köməyi ilə elə çəkilməlidir ki, ondakı təsvirin məkanı və müəyyən predmetləri – ağacların, çiçəklərin, budaqlar, evlərin, dağlar və başqa elementlər də təbii görünüşlü orijinal təsəvvür yaratmış olsun. Metodiki məşğələlərdə tələbə, rəssam hər hansı bir ağacı təsvir edərkən, ilk olaraq onun formasına, quruluşuna diqqət yetirib, hansı işarələrlə, xəttlərlə ümumi bir quruluş verəcəyini aydınlaşdırmalıdır. Ümumi formanı tapdıqdan sonra detala keçib, ağacı konstruktiv baxımdan müəyyənləşdirməlidir. Açıq səma altı dərslərində təbiət motivləri, predmetlər elə çəkilməlidir ki, uzunmüddətli prosesdə çəkilən günlə naturanın görüntüsü, rəng tonu, əvvəlki gündə çəkilən təsvir uyğunluq təşkil etsin. Bundan başqa naturadan çəkilən digər əsərlər– natürmort, portret kimi, mənzərə janrında da rəngkarlıq əsəri çəkərkən əsas ifadə vasitələrindən olan perspektivə, üfüq xəttinə xüsusi fikir vermək lazımdır. Mənzərə əsərlərində həm də miqyas məsələsi böyük önəm daşıyır. Bəzən fiqurlu kompozisiyalı mənzərələrdə çəkilmiş insan təsvirləri həm də verilən predmetlərin ölçüsünü aydınlatmaq baxımından bir növ miqyas funksiyası rolu oynayır. Məhşur dünya rəssamları xüsusilə Dürrer, eləcə də Azərbaycan rəssamlarının yaradıcılığında mikromənzərələr xüsusilə qeyd etmək lazımdır. Mikromənzərə naturadan çəkilmiş təbiət motivləridir. Məsələn, gül, çəmənliyin bir parçası, budaq və ya yarpaqlar, daşlar, süxur töküntüləri və başqa hissələr. Bu kimi mənzərənin işlənməsi rəngkarlıq əsrlərinin öyrənilməsi baxımdan ilkin təməl mövqeyə malik olub, böyük metodik əhəmiyyət daşıyır .

Çəkilən mənzərə hər hansı bir təbiət motivi, heyvan, quş təsvirləri, çiçəklər, evlər və s. ola bilər. Müəllim hər bir tələbəyə yaxınlaşıb onun çəkdiyi etüdün kompozisiya quruluşuna, perspektiva qanunauyğunluğuna, işıq-kölgənin düzgün çəkilməsinə diqqət göstərməli, müəyyən məsləhətlər verməlidir. Daha sonra palitrada rəngin düzgün tapılmasına fikir verilməlidir. İki "ana" rəngi – heç bir qarışığı olmayan, əsas rəng olan sarı və göy rəngin qarışığından alınan yaşıl rəng və onun digər rənglərlə qarışığından alınan müxtəlif yaşıl rəng tonlarını etüd zamanı praktik olaraq göstərmək mümkündür. (şəkil 1). Palitrada rəngləri bir-birinə qarışdırmaqla təbiətdə əyani olaraq "təqdim edilən" koloriti alıb, hazırlanan rənglərdən istifadə olunmalıdır. Burada vaxt çox vacibdir. Məlumdur ki, zaman keçdikcə təbiətdə günəşin düşməsi ilə rənglər, işıq-kölgə dəyişir. "Tələbələr bu sürətli dəyişikliyi nəzərə almaları, etüd edərkən əsas forma, rəng, işıq kölgələri verməklə işi daha sürətli bitirməlidirlər."[2, 79].

Rəssamlarda Azərbaycanın təhsil görmüş ilk peşəkar rəssamı B.Kəngərli çoxlu sayda etüdlər etmişdir. Rəssamın mənzərələrinə tamaşa edərkən, onun bədii irsi üçün səciyyəvi olan, eyni zamanda hər bir rəssam üçün faydalı olan, onların rəng duyma qabiliyyətinin, müşahidə qabiliyyətinin artmasına köməklik edən eyni mənzərəni bir neçə dəfə günün müxtəlif zamanlarında təsvir etməsi kimi xüsusiyyətlərə rast gəlmək olur. Bəhruz bəy Kəngərli təbiətdə müşahidə etdiyi eyni mənzərəni bir neçə dəfə çəkir və hər dəfə gördüyü, hiss etdiyi dəyişikliyi daha real təsvir vasitəsilə, təbiətdə gördüyü, hiss etdiyi rəng koloritində, doğru təsvir etməyə çalışmışdır.Məsələn rəssam "İlan dağ" mənzərəsini bir neçə dəfə, həm də günün fərqli zamanlarında, bəzən də fərqli fəsillərdə çəkmişdir. Etüdlərində bir təsvir səhər saatlarında, dan yeri sökülən zaman, xəfif günəş işığının hər tərəfi yenicə yayılmağa başladığı vaxt təsvir olunmuşdur. İlan dağ isə real bir tərzdə, göründüyü kimi siluet şəklidə çəkilmişdir. Əsərdə sakit rənglərin fonunda nikbin bir canlılıq duyulur.

Bundan əlavə eyni "İlan dağ" mənzərəsinin başqa bir zamanda çəkildiyini görürük. İkinci mənzərə isə günəşin qurub vaxtında çəkilmişdir. Bu mənzərədə dağın təsviri ətrafa çökən tutqun rəngin təsirində təsvir olunmuşdur. Havada və dağda istifadə olunan rənglər axşam günəş batışından doğan gözəlliyin təsirini tamaşaçıya çatdıra bilmişdir. Məhz tələbələrdə də Bəhruz bəy Kəngərli irsinin bu xüsusiyyətlərini, ifadə tərzini eyni zamanda suluboya texnikasının zəruri cəhətlərinin həll

üslublarını aşılamaq lazımdır. Realist rəssam Bəhruz bəy Kəngərlinin yaradıcılığında qədim abidələr, Naxçıvan şəhərinin o dövrkü görüntüsünün real təsvirini yaratmışdır. "Təbii ki zamanında qədim şəhərin ümumi görkəminə bəlkə də xələl gətirən bu mənzərələr onlardan duyğulanmaq və estetik zövq almaqdan daha çox, özündə tarixi gerçəkliyi yaşadan məkanlar kimi bədiləşdirilmişdir."[3,151]. Elə burdan da göründüyü kimi mövzu etibari ilə mənzərələr müxtəlif və rəngarəng olur. Buraya şəhər görünüşləri, abidələrin, sənaye ocaqları kimi insan əli ilə dəyişdirilmiş guşələrin təsvirləri də daxildir. Tələbələrə təbiət qoynunda etüdlər etməklə yanaşı bu kimi yerlərə ekuskursiyalarını da təşkil etmək lazımdır.

Tələbələrin rəsm və rəngkarlıq dərslərində naturadan şəhər mənzərələri təsvir etməsi perspektiva fənnini tam qavramaları, bu elmin düzgün tətbiqi üçün də böyük əhəmiyyət daşıyır. Müxtəlif yerlərə ekuskursiyalar zamanı onlar karandaş vasitəsilə çoxlu sayda nabroskalar edir. Nabroskalarda binanın quruluşu ilə yanaşı, interyerinin təsviri, orada çalışan işçilərin təsviri, dinamikliyini vermək onlar üçün faydalıdır. Bundan əlavə nabroskalar müəyyən şəhər kənarı parklarda, təhsil aldıqlar təhsil müəssisənin həyətində və s. yerlərdə oluna bilər.

İstər rəssamlıq qabiliyyəti olan balaca yaşlı uşaqların, istərsə də tələbələrin peşə bacarıqlarının artırılmasında əhəmiyyətli olan təbiətlə "ünsiyyət", eyni zamanda estetik tərbiyyə məsələlərində, ekoloji və vətənpərvərlik tərbiyyəsində də təbiətin də mühim rolu var. "Təsviri incəsənət fənninin tədrisinin ekoloji tərbiyənin formalaşmasında rolu danılmazdır. Müşahidə etmək, hadisələri qavramaq, ətraf aləmin gözəlliyi duyaraq təbiətə olan sevgiləri daha da artır" [4 ,50].

Təhsil fəlsəfəsinə aid maraqlı fikirləri olan ukraynalı yazıçı, pedaqoq V.A.Suxomlinski təbiətlə "ünsiyyəti"n mənəvi tərbiyyə məsələlərində böyük rol oynadığını qeyd etmişdir. O, haqlı olaraq burada vətənpərvərlik tərbiyyəsini də vurğulamışdır. Qeyd etmişdir ki, təbiətə münasibətdə, onun gözəlliklərindən duyulan saf duyğular Vətənə, torpağa bağlılıq, sevgi hissi yaradır. **Təsviri incəsənət dərslərinin əhəmiyyəti rəsm üzrə bilik, bacarıq və vərdişlərin inkişafı ilə məhdudlaşmır, uşaqları, gəncləri mənəvi, psixoloji cəhətdən inkişaf etdirir, kamilləşdirir. Akademik Urxan Ələkbərov isə bu mövzuda demişdir: "Tərbiyə mədəniyyətin çox vacib bir hissəsidir. Bu mənada ekoloji tərbiyə də, ekoloji mədəniyyət də ümumi mədəniyyətin ayrılmaz hissələridir. Mədəniyyətin inkişafı tədrislə əlaqədardır. Mədəniyyət deyəndə biz nəyi başa düşürük: incəsənəti, musiqini, memarlığı və s. Lakin mədəniyyət insanın öz ətrafı ilə vəhdət təşkil etməsi, onunla harmoniyada yaşamasıdır** [8].

**Nəticə**

Təhsilalanların *vətənimizin tarixi və incəsənəti ilə yaxından tanış olmaları müxtəlif fənnin tədrisi ilə öyrənilən biliklər, əyani izahı isə tarixi* abidələrə ekuskursiyaları, praktik məşğələlərdə isə onları naturadan təsviri ilə daha da möhkəmlənir. Bədii yaradıcılığın bu istiqamətdəki bacarıq və vərdişləri tələbələrə aşlamaq üçün müəyyən proqram üzrə açıq səmaaltı etüd dərsləri, plener təcrübələrinin əhəmiyyəti böyükdür.

Məktəbəqədər təhsil müəssisələrində «Təsviri incəsənət məşğələləri»ndə uşaqları, orta ümumtəhsil məktəblərin Təsviri incəsənət dərslərinin «Naturadan rəsm» məşğələləri zamanı (təbiət motivlərinin naturadan rəsmi) şagirdləri, istərsə də ali məktəblərin Təsviri incəsənət ixtisası tələbələrini müəyyən dərsləri təbiətə ekuskursiyası şəraitində keçirilməsi daha məqsədəuyğundur və böyük əhəmiyyətə malikdir. Müəyyən dərslərin bu formada tədrisi təhsilalanların bilik və bacarığının formalaşmasından əlavə onların estetik, ekoloji və vətənpərvərlik tərbiyyəsində böyük rol oynayır.

Rəssam təbiətin gözəlliklərini, havanı, işığı, rəngləri təfsilatı ilə verərkən şəxsi hiss və həyəcana əsaslanır. Təbiət təsvirlərini əks etdirən mənzərə əsərləri gözəlliyi insanlara daha dolğun və obyektiv çatdırmaq imkanına malikdir və təbiətin saf gözəlliyini duymağa, onu qorumağa çağırışdır. Rənglərin sehrilə, təbiətin saf enerjisilə yoğrulmuş mənzərə əsərləri təbiət gözəlliklərindən zövq almağa çağırış, təbiəti qorumaq, təbiətə doğma münasibəti formalaşdırmaq, estetik dünyagörüşlü, zəngin mənəviyyata, bədii zövqə və yaradıcı təxəyyülə malik, milli və ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, şəxsiyyətlərin formalaşdırmaq təsviri incəsənət dərslərinin bir istiqamətini təşkil edir. "Azərbaycanda təbiətin qorunması bizim gələcəyimizlə bağlı məsələdir. Azərbaycanın çox gözəl təbiəti, iqlimi vardır. Biz hamımız bu təbiəti qorumalıyıq" deyən Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2024 "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması və ölkəmizin COP 29 kimi nəhəng beynəlxalq tədbirə ev sahibliyi etməsi təbiətə olan münasibətinin göstərdiyi amillərdən biridir.

## ƏDƏBİYYAT


1. Allahverdiyeva H. Rəngkarlığın əsasları. Naxçıvan, Əcəmi. 2022.168 s.
2. Allahverdiyeva H. İbtidai siniflərdə təsviri incəsənət və onun tədrisi metodikası fənninin "Naturadan rəsm" üzrə məşğələlərində praktik işlərin yerinə yetirilməsinə dair (metodik vəsait)."Məktəb", 2024. 87 s.
3. Əliyev Z. və Alıyev N. Bəhruz bəy Kəngərli taleyi. Naxçıvan: "Əcəmi", 2017, 512 s.
4. Xəlilov Taleh, Məmmədova Sevinc. I - IV siniflərdə ekoloji mədəniyyət tərbiyəsinin formalaşdırılması.Naxçıvan-2022."Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 80 səh.
5. Qurbanov Babək. Mənəvi saflıq dünyası. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1989.S.192
6. Təsviri incəsənət. Ümumtəhsil məktəblərinin 1-VII sinifləri üçün proqram Bakı: Kövsər 2007
7. Verdiyev Əli. Dəzgah rəngkarlığı.Bakı.İşıq. 1988.
8. https://ekolojijurnal.wordpress.com/2019/01/29/ekoloji-t%C9%99rbiy%C9%99-ona-nec%C9%99-nail-olmali/



***Naxçıvan Müəllimlər İnstitutu***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***Naxçıvan Muxtar Respublikasının***
***Əməkdar rəssamı***
***E-mail: HabibaAllahverdiyeva@nmi.az***
***E-mail: habibe.allahverdiyeva@mail.ru***

**Habiba Allahverdiyeva**


## LANDSCAPE GENRE IN PAINTING TEACHING PATRIOTIC, AESTHETIC AND ECOLOGICAL EDUCATION ASPECTS


The article talks about the impact of teaching fine arts and painting on patriotism, ecological and aesthetic education, and the issues of the right direction in higher and secondary general education schools, as well as in extracurricular educational institutions. This topic has been explored in the landscape genre, as well as in the aspect of painting from nature. It was emphasized that this direction is taken as the basis in the teaching of painting, and that it is more appropriate to depict landscape works and natural motifs in such educational matters. It has been revealed that the teaching of certain subjects of fine arts and painting classes in the bosom of nature has a significant positive effect on students, as well as students, by mastering the technical aspects of this subject and increasing their creative possibilities, as well as on their aesthetic education, as well as their patriotism and environmental education. At the same time, the article describes the methodology of creating landscape works, the directions of its color solution, technical means, the mostly used "green color" aesthetics, psychological effects, educational significance, etc. issues were also touched upon.



**Keywords:** *painting, landscape genre, artist, green color, nature images, ecological education, patriotic education, aesthetic education*



**Габиба Аллахвердиева**


## ЖАНР ПЕЙЗАЖ В ПРЕПОДАВАНИИ ЖИВОПИСИ АСПЕКТЫ ПАТРИОТИЧЕСКОГО, ЭСТЕТИЧЕСКОГО И ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ


В статье говорится о влиянии обучения изобразительному искусству и живописи на патриотизм, экологическое и эстетическое воспитание, а также о вопросах правильного направления в высшей и средней общеобразовательной школе, а также во внешкольных

образовательных учреждениях. Данная тема исследована в жанре пейзажа, а также в аспекте живописи с натуры. Подчеркивалось, что это направление взято за основу в преподавании живописи и что в таких учебных делах уместнее изображать пейзажные произведения и природные мотивы. Выявлено, что преподавание отдельных предметов изобразительного искусства и занятий живописью на лоне природы оказывает существенное положительное влияние на учащихся, а также студентов за счет овладения техническими аспектами этого предмета и повышения их творческих возможностей, а также как на их эстетическое воспитание, так и на их патриотизм и экологическое воспитание. При этом в статье описываются методика создания пейзажных произведений, направления его цветового решения, технические средства, наиболее часто используемая эстетика «зеленого цвета», психологическое воздействие, воспитательное значение и т.д. вопросы также были затронуты.

**Ключевые слова:** *живопись, пейзажный жанр, художник, зеленый цвет, образы природы, экологическое воспитание, патриотическое воспитание, эстетическое воспитание*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 28.10.2024**
**Son daxilolma tarixi:18.11.2024**